# Ətraf mühit və vətəndaş cəmiyyətlərinin ekoloji missiyası...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Ekologiya və ətraf mühitin mühafizəsi**

**Ekoloji problemlərin həlli məsələsində QHT-Dövlət əməkdaşlığını qənaətbəxş saymaq olar. Dövlətin ekologiya sahəsində siyasətini həyata keçirən Ekologiya və Təbii Sərvətlər Nazirliyi ekoloji problemlərin həllində cəmiyyətin daha geniş iştirakını təmin etmək, eləcə də nazirliyin öz vəzifə və funksiyaları çərçivəsində həyata keçirdiyi tədbirlər barədə əhalinin məlumatlılığının daha da artırılması məqsədilə müntəzəm olaraq nazirliyin əməkdaşlarının, mütəxəssislərinin QHT-lərlə görüşləri, birgə tədbirləri həyata keçirilir, fikir mübadiləsi aparılır.**




Müxtəlif ekoloji problemlərin həlli, bu sahədə qabaqcıl təcrübənin tətbiqi, yeni təkliflərin verilməsi ilə əlaqədar keçirilən müzakirələrdə, ölkəmizdə ətraf mühit sahəsində fəaliyyət göstərən QHT-lərin rəyləri də öyrənilir və təqdirəlayiq bilindiyi halda istifadə edilir. Müntəzəm olaraq KİV və QHT nümayəndələri üçün seminarlar təşkil olunmaqla yanaşı, Nazirlik çərçivəsində keçirilən bütün tədbirlərdə ictimaiyyətin nümayəndələri iştirak edir və hər hansı bir ekoloji və ətraf mühitlə bağlı məsələ ilə əlaqədar yaradılan komissiyalarda onlar təmsil olunurlar. Nazirliklə daimi işgüzar əlaqə saxlayan QHT-lər nazirliyin tədbirlərinə cəlb edilir, onların təklif və sorğuları əsasında görüşlər təşkil olunur.

**Vətəndaşın vətənin ekologiyasına və sərvətlərinin taleyinə biganə qalmaması qürurvericidir**

Azərbaycan Respublikasının ratifikasiya etdiyi beynəlxalq ekoloji konvensiyalardan irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün işçi qrupları yaradılıb və bu qrupların tərkibinə də müvafiq QHT-nin nümayəndələri daxil edilib. Qeyd edək ki, son illərdə Azərbaycanda milli donor institutlarının yaradılması ilə başqa sahələrdə olduğu kimi, ekoloji problemlərin də həlli istiqamətində də QHT-lərin həyata keçirdiyi tədbirləri daha da sürətləndirmiş və bir canlanma yaranıb. Bu sahədə milli donor institutlarının maliyyə dəstəyi ilə icra olumuş və icra olunmaqda olan QHT layihələrinə nəzər salmaqla bu canlanmanı müşahidə edə bilərik. Azərbaycanın bir qrup QHT nümayəndəsinin Laçın-Xankəndi yolunda keçirdiyi etiraz aksiyaları yadımızdadır. Şahidi olduq ki, vətəndaş cəmiyyəti fəallarının ekologiyamızın qorunması məqsədilə haqlı tələbləri ortaya qoyurdular. Azərbaycan cəmiyyəti, həmçinin ölkəmizin təbii sərvətlərinin əcnəbi şirkətlər tərəfindən qeyri-leqal yolla vəhşicəsinə istismar olunaraq daşınmasına da qəti surətdə etiraz etdi. Qalib ölkənin qalib vətəndaşının Vətənin ekologiyasına və sərvətlərinin taleyinə biganə qalmaması, kəskin etiraz səsini yüksəltməsi, tamamilə təbii və qürurvericidir.

Qeyd edək ki, aksiya nəticə verdi və Azərbaycanın vətəndaş cəmiyyətinin həm erməni sakinlərin yaşadığı ərazilərimizdəki, həm də Ermənistandakı proseslərə təsir göstərmək potensialını nümayiş etdirdi. Etiraz aksiyası irəli sürülən bütün tələblər yerinə yetirilənədək davam etdirildi. Tələblərdən biri Azərbaycan torpaqlarındakı təbii sərvətlərin qanunsuz istismarına son qoyulması, ekoloji fəlakət və bunun araşdırılması üçün Azərbaycanın müvafiq dövlət qurumlarının həmin ərazilərdə monitorinq keçirməsinə şərait yaradılması idi . Azərbaycan buna tam nail oldu.

**Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə uğurlu etiraz aksiyası**

Hər kəsə məlumdur ki, son illərdə dünyada ekoloji problemlər və ekosistemlərə təhlükə törədən amillərin sayı artmış, insan fəaliyyəti nəticəsində ekosistemlər deqradasiyaya uğrayıb. Bu səbəbdən də ekologiyanın qorunub saxlanılması və davamlı istifadəsinə dair ciddi tədbirlərin görülməsini tələb edir. Son illərdə Azərbyacanda ekoloji problemləri önə çəkilərək bu sahədə xeyli iş görülüb. QHT sektorunun bu sahədə həyata keçirdiyi layihələr ekoloji problemlərin həlli məsələsində çatışmazlıqları aradan qaldırmaq üçün az rol oynamır. Təsadüfi deyil ki, QHT-lər tərəfindən dünəndən Şuşa ərazisində başlanan Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində azərbaycanlı aktivistlər və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə uğurlu etiraz aksiyası keçirdi.

**"Hərəyə bir ağac əkək" adlı nəcib təşəbbüs**

Ekologiya və ətraf mühitin mühafizəsi tək dövlət deyil, eyni zamanda qeyri-dövlət təşkilatlarının da əsas diqqət mərkəzində olan məslələrdəndir. Bu sırada Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Belə ki, Fondun 2007-ci ildə həyata keçirmiş olduğu "Hərəyə bir ağac əkək" adlı nəcib təşəbbüsü ölkədə genişmiqyaslı yaşıllaşdırma kampaniyasının aparılmasına yol açdı ki, bu da ətraf mühitə göstərilən ən böyük qayğı idi.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü ilə işlənib hazırlanmış "Hərəyə bir ağac əkək" layihəsi çərçivəsində təkcə Bakı ətrafındakı qəsəbələrin istifadəsiz qalmış sahələrində 10 minlərlə həmişəyaşıl ağac əkildi. Qısa zamanda Azərbaycanın bütün şəhər, qəsəbə və kəndlərində vətəndaşlar bu təşəbbüsə qoşularaq yaşıllaşdırma kampaniyasını davam etdirdilər. Ətraf mühitin qorunmasına yönəlmiş layihə çərçivəsində ümumilikdə ölkə ərazisində bir milyondan çox yeni ağac əkildi. Ekolgiyanın qorunması və ətraf mühitin mühafizəsinə töhfə verən təşkilatlardan biri də IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxaq dialoq) İctimai Birliyidir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 12 İyul 2011-ci ildə fəaliyyətə başlayan İDEA-nın əsas məqsədi ətraf mühit məsələləri və fəaliyyətlər barədə ictimai maarifləndirmə, gənclərlə əməkdaşlıqdır.

***Məhəmmədəli QƏRİBLİ***

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.*